**“Bələdiyyələrin statusu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq, “Bələdiyyələrin statusu haqqında” Azərbaycan Respublikasının Qanununu “Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2014-cü il 20 iyun tarixli 1002-IVQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

**Maddə 1.** “Bələdiyyələrin statusu haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, 7, maddə 405; 2001, 11, maddələr 689, 690, 12, maddə 736; 2002, 5, maddə 242; 2003, 1, maddələr 11, 16, 6, maddə 256; 2004, 1, maddə 10, 4, maddə 202, 5, maddə 314, 6, maddə 397; 2005, 2, maddə 62; 2006, 2, maddə 67, 11, maddə 923, 12, maddə 1005; 2007, 11, maddələr 1053, 1082; 2008, 5, maddə 354; 2009, 6, maddə 410; 2010, 3, maddə 173, 4, maddələr 275, 276; 2011, 2, maddə 71, 12, maddə 1074; 2012, 6, maddə 523; 2014, 8, maddə 956, Azərbaycan Respublikasının 2014-cü il 28 oktyabr tarixli 1103-IVQD nömrəli Qanunu) 43-cü maddəsinin birinci bəndinə aşağıdakı məzmunda ikinci və üçüncü cümlələr əlavə edilsin:

“Yerli vergi və ödənişlərin ödənilməsi banklar, poçt rabitəsinin milli operatoru, habelə mövcud nağdsız ödəmə vasitələri ilə həyata keçirilir. Bələdiyyələr tərəfindən yerli vergi və ödənişlərin nağd şəkildə qəbul olunması qadağandır.”.

**Maddə 2.** Bu Qanun 2015-ci il yanvarın 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 16 dekabr 2014-cü il
1148-IVQD